# "Bakı-2015" ilk Avropa Oyunları

## 1st EUROPEAN GAMES

12-28 iyun 2015

12-28 june 2015





# İlk Avropa Oyunlarına ev sahibliyi etməsi Azərbaycanın həm sürətli dinamik innovativ inkişafının, həm də multikulturalizm ənənələrini yaşatmasının bəhrəsidir

**İlk Avropa Oyunlarının müstəqilliyini cəmi 24 il əvvəl bərpa etmiş Azərbaycanda keçirilməsinə etibar edilməsi heç də təkcə dinamik sosial-iqtisadi inkişafla bağlı deyildir. Bu həm də ölkəmizin tolerantlığı, digər xalqların mədəniyyətlərinin, milli dəyərlərinin özünüifadəsi üçün Yer kürəsində demək olar ki, ideal ölkələrdən biri olması ilə də bağlıdır. Azərbaycan müstəqilliyini bərpa etdiyi bu müddət ərzində multikulturalizmin ən nadir məkanı olmasını hər addımda dünyaya sübut edib. Avropa Olimpiya Komitəsinin seçimi, təbii ki, bu xüsusiyyətləri həm təhlükəsizlik və həm də sabitlik baxımından da dəyərləndirib. Çünki bu xarakterli tədbirlər təkcə idman yarışması olmaqla məhdudlaşmır, xalqların, ölkələrin yaxınlaşmasına, dostluğuna, inteqrasiyaya, turizmin inkişafına, qarşılıqlı hörmətə, etimada, bir sözlə, sülhə, birgəyaşayışa xidmət edir.**

2016-cı ildə ölkəmiz Dünya Şahmat Olimpiadasına, eyni zamanda "Formula-1" yarışlarına və 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcəkdir. Dünyanın müxtəlif regionlarındakı milli dini zəmində qarşıdurmalar, müxtəlif fobiyalar, kataklizmlər fonunda bu pozitiv sosial-siyasi proses son dərəcə mühüm əhəmiyyətə malikdir. Azərbaycan Prezidenti İlham Əliyev "The Business Year" jurnalına müsahibəsində bu böyük etimad və məsuliyyət barədə deyib: "İki il ərzində bir ölkədə, bir şəhərdə həm Avropa Olimpiya, həm də İslam Həmrəyliyi Oyunlarının keçirilməsinin rəmzi mənası vardır. Azərbaycan bütün dinlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı çoxmillətli, çoxkonfessiyalı və çoxmədəniyyətli ölkədir. Bu gün Azərbaycan daha çox aktuallaşan sivilizasiyalararası dialoqa öz dəyərli töhfəsini verir. Düşünürəm ki, bu Oyunlar Azərbaycanın mədəniyyətinin, zəngin multikulturalizm ənənələrinin, turizm imkanlarının, həmçinin Azərbaycan brendi olan məhsulların təbliği baxımından da çox faydalı olacaqdır".

Beləliklə, Azərbaycan dünyada həm beynəlxalq iqtisadiyyata inteqrasiyanın, həm də sivilizasiyalararası dialoqun ən səmərəli nümunəsi və tolerant ölkədir. Xalqımızın digər millətləri özündən ayırmaması, dözümlüyü dünyada təsdiq olunan faktdır, bu sosial-humanitar reallıq hazırkı gərgin beynəlxalq şəraitdə dünyaya sivilizasiyalararası dialoq sahəsində tarixi və müasir təcrübənin nadir təqdimatıdır.

Bu günlərdə ölkəmizin III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna ev sahibliyi etməsi də təsadüfi deyildir. Bu istiqamətdə zamanın problem məsələsinin beynəlxalq səviyyədə müzakirəsini üçüncü dəfədir ki, Azərbaycan dövləti təşkil edir. Dünyada multikulturalizm, sülh, birgəyaşayış, səmərəli siyasi-iqtisadi-sosial əməkdaşlıq ölkəmizin yürütdüyü xarici siyasətin ana xəttini təşkil edir və dövlət bu istiqamətdə daim öz fəaliyyətini genişləndirir. Azərbaycan Prezidenti III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılışındakı nitqində demişdir: "Bu gün Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri yaşayır və ölkəmizin uğurlu inkişafına öz töhfələrini verirlər. Düşünürəm ki, bu, bizim ən böyük sərvətlərimizdəndir. Biz bundan qürur duyuruq və multikulturalizm dəyərlərinin, sülh, əməkdaşlıq və qarşılıqlı anlaşmanın təşviqi üçün müxtəlif beynəlxalq tədbirlər keçiririk. Hesab edirəm ki, müsbət meyillərin güclənməsi üçün dünyada belə tədbirlərə, açıq müzakirələrə və fikir mübadiləsinə ehtiyac var".

Avropa və Asiyanın qovşağında yerləşən Azərbaycan tarixən beynəlxalq iqtisadi-siyasi və sosial əlaqələrin və müxtəlif mədəniyyətlərin özünüifadəsi üçün ən ideal məkan, məhrəm münasibətlər qovşağı olmuş, bəşəriyyətin müxtəlif dini milli dəyərlərinin bir arada özünütəsdiqini ifadə edə bilmişdir. İqtisadi-siyasi əlaqələr həmişə milli və dini münasibətlərin təması ilə müşayiət olunur. Bu mənada qədim zamanda Azərbaycan ərazisindən keçən və Çindən Avropaya qədər olan tarixi Böyük İpək Yolunun da bu prosesdə mühüm rolu vardır. Bu gün həmin tarixi tranzit nəqliyyat qovşağı bərpa olur. Bu, hazırkı şəraitdə iqtisadiyyatın inkişafı, inteqrasiyası, birgəyaşayış, beynəlxalq əlaqə və inkişaf üçün həyati əhəmiyyətə malik infrastruktur və təməldir. Əlaqə və əməkdaşlıq təməlləri üzərində üstqurum olan bəşəri dəyərlər zənginləşir, harmonik axara düşür. Azərbaycan bu praktik mövcudiyyətdə tarixən irəlidə getmiş, bu gün də bütün dövlətlərə nümunəvi birgəyaşayış modelini nümayiş etdirməkdədir. Hazırkı dünyada bir çox ölkələrdə son dərəcə gərgin, ağrılı insanlıq faciələri yaşanır. UNESCO-nun baş direktoru




Forumda bu fonda multikulturalizmin təşviqinə, təbliğinə və tətbiqinə istiqamətlənmiş "Bakı prosesi"nin əhəmiyyəti barədə demişdir: "Üçüncü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etməkdən şərəf hissi duyuram.

(davamı 5-ci səhifədə)











# İlk Avropa Oyunlarına ev sahibliyi etməsi Azərbaycanın həm sürətli dinamik innovativ inkişafının, həm də multikulturalizm ənənələrini yaşatmasının bəhrəsidir

**(əvvəli 1-ci səhifədə)**

"Bakı prosesi" 2008-ci ildə başlanıb. Hər gün biz zati-aliləri cənab İlham Əliyevin bu təşəbbüsünün, uzaqgörənliyinin şahidi oluruq. Bu rəhbərlik keyfiyyətləri Azərbaycanın İpək Yolu kimi mədəniyyətindən, onun qədim tarixindən irəli gəlir... Biz bütün dünyada ölkələri parçalayan, insanlara əzab verən münaqişələri görürük. Biz zorakı ekstremizmin, etnik təmizləmənin artmasını görürük. Biz məscidlərin, kilsələrin və digər məbədlərin dağıdıldığını, azlıqların təqib olunduğunu görürük. Biz təhsilə, uşaqlara, xüsusən məktəbli qızlara hücumları görürük. Biz ifadə azadlığına hücumları, jurnalistlərin qətlə yetirildiyini görürük. Biz cəmiyyətlərin digərlərinin üzünə bağlandığını görürük. Dünyadakı mövqeyimiz, UNESCO-nun mövqeyi, "Bakı prosesi"nin mövqeyi bu baxımdan görünməmiş dərəcədə əhəmiyyətlidir". Bu ifadələrə bir dəlil olaraq deyə bilərik ki, Avropa Oyunlarının Bakıda keçirilməsi ilə bağlı tarixi hadisələr baş verməkdədir. Tarixən Olimpiya Oyunlarının məşəli Olimp dağı zirvəsində alovlandırılır. Bu məşəl linza ilə yandırılırdı. Birinci Avropa Oyunlarının məşəli təbii alovla aprelin 26-da qədim Atəşgah məbədi Dövlət Tarixi-Memarlıq Qoruğunda Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin də iştirak etdiyi tarixi prosesdə dövlət başçımız tərəfindən yandırıldı. Qədim, zəngin taixi adət-ənənələrinə, milli dəyərlərinə və multikulturalizmə sadiqliyinə görə Azərbaycan dünyanı cəlb etməkdədir. Mədəniyyətlərarası dialoqun mərkəzinə çevrilmiş ölkəmizdəki bu hadisə vacib bir qərarla nəticələnmişdir. Növbəti Avropa Oyunlarının məşəli Atəşgah məbədində alovlandırılacaqdır. Bu da xalqlar arasında körpüyə, mədəniyyətlərarası dialoqa tarixi bir töhfə!

Müasir dövrümüzdə dünyanın qitələrindəki müxtəlif dövlətlərində çox gərgin, narahatdoğurucu güclü sosial-siyasi kataklizmlər yaşanır. Diqqət edildikdə son dövrlərdə müsəlmanların yaşadıqları ölkə və bölgələrdə bu proses daha da genişlənir, kütləvi faciəvi aksiya və hətta soyqırımlarla müşayiət olunur. Dünyanın inkişaf etmiş, demokratiyanın yüksək səviyyəsindən bəhs edən ölkələrində belə milli dini dözülməzliyin, millətçilik amillərinə yol verilməsinin şahidi oluruq. Qərbdə və dünyanın hər hansı bir ölkəsində baş verən, bəşəri fəlakətə zəmin olan müxtəlif fobiyaların, milli dini ayrı-seçkiliyin mövcudluğu və bir çox hallarda rəsmi səviyyədə belə təqdir olunması, qarşısının alınmaması, bu prosesə dair məlumatların, hadisələrin və proseslərin informasiya-texnologiyalarının, internetin, rabitə texnikasının sürətli inkişafı şəraitində saniyələr ərzində dünyaya yayılması bu gün müsəlmanların və digərlərinin kütləvi faciələrinə, soyqırıma uğramalarına stimul yaratdığını deyə bilərik. Bundan başqa, xüsusən Qərb istehsalı olan filmlərdə və digər təbliğati xarakterli vasitələrdə terrorçuların "fundamental islamçılara" aid edilməsi, rəsmi çıxışlarda belə bu təzahürlərin dəstəklənməsi də reallıqdır. İslamafobiyadan başqa, hazırda müsəlman ölkələrində baş verən siyasi-sosial proseslərdə İslam adı altında İslam yolundan və əxlaqından uzaq, Qurani-Kərimdə göstərilən normalara və əxlaqa uyğun gəlməyən təbliğ, əməl və geniş ərazilərdə terrorla rastlaşırıq. Beləliklə, dini milli ayrı-seçkilik, qarşıdurma getdikcə daha geniş əraziləri əhatə etdiyi üçün təcili həll olunası beynəlxalq problemə çevrilib. İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədəni müzakirə olunan mövzunun aktuallığından danışarkən deyib: "Biz bilirik ki, dünyada bu ayrı-seçkiliyin, təcrid olunmanın aradan qaldırılması birgə səylərimizlə mümkündür. Bu baxımdan mədəniyyətlərin və dinlərin, müxtəlif baxışların tətbiq edilməsi çox vacibdir. Biz bununla paylaşmalıyıq və bu gün də Bakıda— Azərbaycanın paytaxtında bu fikirlə paylaşırıq... bizim əsrimiz özünəməxsusluq, identiklik əsridirsə, bu, həmçinin tolerantlıq, digərlərinin mədəniyyətlərinin etirafı əsri olmalıdır. Biz tək yaşamalı deyilik. Biz paylaşmalı, tərəfdaş kimi çıxış etməliyik".

Beləliklə, dünyada sosial ədalətsizlik genişlənməklə bərabər, həm də insanlıq naminə öz həllini təcili tələb edir. Çünki bu elə bir prosesdir ki, iqtisadi məhdudiyyətlərə, ayrı-seçkiliyə, siyasi kataklizmlərə, qeyri-bərabər bölgülərə, qarşıdurmalara yol açır. BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nassir Abdulaziz əl-Nasser bu barədə danışarkən vurğulayıb ki, "Mədəniyyəti ortaq təhlükəsizlik naminə paylaşaq" mövzusunu müzakirə etdiyimiz zaman müxtəliflik məfhumunu xatırlatmaq çox yerinə düşərdi. Bu zala nəzər saldıqda burada müxtəlif ölkələrdən gəlmiş çoxlu sayda fərqli insanları görürəm. Asiya ilə Avropa arasında yerləşən Azərbaycanın özü müxtəlif irq, din, mədəniyyət və dillərdən ibarət möhtəşəm mozaikadır". Gənc nəsli hədəf seçən radikalizmin, ekstremizmin və münaqişələrə səbəb olan digər halların qarşısını almaq üçün kollektiv tədbirləri, dialoqları, məsləhətləşmələri genişləndirmək zəruridir. Natiq qeyd edib ki, BMT-nin Sivilizasiyalar Alyansının mədəniyyət və yaradıcılığın, eləcə də mədəniyyətlərarası dialoqun, irsin saxlanılmasına yönəlmiş turizmin yaradılmasına çalışdığını vurğulayaraq bildirib ki, Azərbaycan mədəniyyətlərarası dialoqa uğurla ev sahibliyi edir. 2010-cu ildə Minilliyin İnkişaf Sammitində qeyd edildi ki, mədəniyyət inkişafa töhfə verən çox önəmli amildir. Biz bu inkişafın təmin edilməsi üçün hərtərəfli cəmiyyətin qurulmasını vacib hesab edirik. Mədəniyyətin inkişafı, həmçinin iqtisadiyyatın inkişafı deməkdir. Bu həm də sosial ahəngdarlığı yaradır və davamlı inkişafı təmin edir. Mədəniyyətlərə qoyulan sərmayəyə gəldikdə biz görürük ki, iqtisadiyyatlar öz imkanlarına əsaslanaraq daha da güclənə bilər. O ki qaldı turizmə, bu gün bu, qlobal iqtisadiyyatda ən çox sürətlə artan sahədir.

Bu çıxışlar bir daha göstərir ki, Azərbaycanın dövlət səviyyəsində multikulturalizm dəyərlərinin qorunmasına və təşviqinə yönəlmiş siyasəti müasir dünyamızın ən ümdə problemini özündə əks etdirir. Dövlətlərin sosial-iqtisadi inkişafı, siyasi stabilliyi üçün Azərbaycanın qədim tarixə və köklərə malik milli dini birgəyaşayış modeli müasir dünyamızda digər dövlətlər üçün ən optimal modeldir. Hazırkı gərgin və narahatdoğurucu qarşıdurmalar fonunda milli dini dözümlük dinc, sülh şəraitində birgəyaşayışın çox mühüm bəşəri amilidir. Dövlətimizin rəhbəri bu barədə vurğulayıb: "Multikulturalizmin alternativi yoxdur. Hesab edirəm ki, siyasətçilərin, ictimai xadimlərin, beynəlxalq təsisatların, qeyri-hökumət təşkilatlarının və medianın bu məsələdə məsuliyyəti artmaqdadır...Biz bəzi hallarda görürük ki, dini nifrət süni şəkildə yaradılır. Bəzən dünyanın müxtəlif yerlərində etnik və dini zəmində zorakılığın şahidi oluruq və o zaman siyasətçilərin və vəziyyətə təsir edə bilən insanların məsuliyyəti artır. Düşünürəm ki, bu səbəbdən multikulturalizm dəyərlərini birgə səylərlə təşviq etməliyik... Avropa Olimpiya Komitəsinin dünyada ilk Avropa Oyunlarının müsəlman əhaliyə malik Azərbaycanda keçirilməsi ilə bağlı qərarı son illər qəbul edilmiş ən müdrik qərarlardan biridir. Biz 6000 Avropa idmançısını bir araya gətirəcəyik. Artıq prosesin yekun mərhələsindəyik. Bu, yalnız böyük idman tədbiri deyil, həm də dostluq və tərəfdaşlıq tədbiri olacaq...Biz səylərimizi davam etdirəcəyik və 100-dən artıq dövlətdən olan nümayəndələrin Bakıya səfər edərək bu mühüm məsələləri müzakirə etməsi bizdə məqsədlərimizə nail olmaqla bağlı ruh yüksəkliyi yaradır. Biz dostluq, sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə töhfəmizi verməyə çalışacağıq".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**







